# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 346** **Bakı şəhəri, 7 avqust 2018-ci il**

**"Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli149 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanu-nunda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1009-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 3884 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 866; 2006, № 3, maddə 303, № 5, maddələr 463, 468, № 8, maddə 731, № 9, maddə 822, № 11, maddə 994; 2007, № 1, maddə 50, № 10, maddə 1021, № 12, maddələr 1343, 1352; 2008, № 2, maddə 130, № 4, maddə 308, № 10, maddə 936; 2009, № 1, maddələr 22, 32, № 2, maddələr 144, 150, № 9, maddələr 736, 753; 2010, № 4, maddə 369, № 11, maddə 1048; 2011, № 1, maddə 66, № 4, maddə 365; 2012, № 9, maddə 934; 2013, № 8, maddə 1000, № 10, maddə 1202; 2014, № 1, maddələr 59, 69, № 2, maddə 201, № 5, maddə 557, № 6, maddələr 745, 747, № 9, maddə 1130; 2015, № 2, maddə 227, № 3, maddələr 328, 337, № 6, maddələr 774, 781, № 7, maddə 890, № 11, maddə 1412; 2016, № 3, maddə 595, № 4, maddələr 806, 831, № 5, maddələr 941, 955, № 8, maddə 1450, № 9, maddə 1561, № 12, maddələr 2220, 2241; 2017, № 4, maddə 643, № 6, maddə 1244, № 9, maddələr 1722, 1745, № 10, maddə 1896; 2018, № 1, maddə 122, № 3, maddə 630, № 4, maddələr 785, 831; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 iyun tarixli 257 nömrəli və 13 iyul tarixli 294 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Büdcə gəlirlərinin təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.4.2.2.7.0-cı yarımbənddə "ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin," sözləri "ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici ilə bağlı apellyasiya şurasına müraciət edilməsi," sözləri ilə əvəz edilsin.

**2.** 1.4.2.2.7.3-cü yarımbənddə "İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin," sözləri "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici ilə bağlı apellyasiya şurasına müraciət edilməsi," sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***